İki gün davam edən çempionatın əsas məqsədi fevral ayında Azərbaycan çempionatında iştirak edəcək “Təhsil” RİM-in yığma komandasını müəyyənləşdirməkdir.

Birincilikdə Təhsil Nazirliyinin tabeliyində olan idman məktəblərinin 34 idmançısı mübarizə aparıb. Yüksək səviyyədə təşkil olunan yarış gərgin mübarizə şəraitində keçib.

Yarışın nəticələrinə əsasən, komanda hesabında I yeri “Təhsil” RİM-in Gəncə filialı, II yeri 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Mərkəzi, III yeri Cəlilabad Uşaq-Gənclər İdman Məktəbi (UGİM) tutub. Şəxsi hesablarda da bu idman müəssisələrinin yetirmələri fərqləniblər.